# Movzu 9

## Valyuta nəzarəti

PLAN

**1.Valyuta tənzimlənməsinin əhəmiyyəti**

**2.Azərbaycan Respublikasının valyuta sistemi**

**3.Valyuta nəzarəti**

1.Valyuta tənzimlənməsinin əhəmiyyəti

Beynəlxalq valyuta münasibətlərində dövlətin maraqlarının qorunması və iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün özünəməxsus valyuta siyasəti olmalıdır.

Valyuta siyasəti dedikdə,valyuta münasibətləri sahəsində dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin məcmusu başa düşülür.

Valyuta siyasəti aşağıdakı məsələlərin həllinə yönəlmiş tədbirləri nəzərdə tutur;

-valyuta-maliyyə mexanizminin və ölkə iqtisadiyyatının ödəmə və kredit qabiliyyətinin möhkəmləndirilməsi;

-respublika üçün əlverişli şərtlərlə xarici invenstisiyaların cəlb edilməsi ;

-ölkədən əsassız valyuta və milli kapital axınının qarşısının alınması ;

-milli valyutanın mütərəqqi təminatlarla möhkəmləndirilməsi,o cümlədən stabil məzənnəsinə və sərbəst konvertasiyasına nail olunması;

-iqtisadiyyatda milli valyutanın-manatın hakim mövqeyinin təmin edilməməsi və xarici valyutanın hər hansı şəkildə mənfi müdaxiləsinin qarşısının alınması.

**Azərbaycan Respublikasının valyuta sistemi**

Valyuta sistemi-Beynəlxalq sazişlər nəzərə alınmaqla milli qanunvericilik əsasında fəaliyyət göstərən valyuta münasibətlərinin təşkili və tənzimlənməsi formasıdır.

Azərbaycan Respublikası Beynəlxalq Valyuta fondunun üzvüdür.

Azərbaycan valyuta sisteminin əsas elementləri aşağıdakılardır:

Birincisi,1992-ci ildən Respublika ərazisində milli valyuta-Azərbaycan manatı tədavülə buraxılmışdır.Azərbaycan manatı ölkə valyuta sisteminin əsasıdır.

İkincisi,Azərbaycanda sərbəst valyuta məzənnəsi hakimdir.Bu o deməkdir ki,manatın məzənnəsi digər valyutara münasibətdə dəyişə bilər və ölkə valyuta bazarında təklif və tələbdən asılı olmayaraq formalaşır.Bununla bərabər milli valyuta heç bir digər valyuta növü ilə bağlı deyil.Azərbaycan manatının qızıl məzmunu rəsmən müəyyən edilməmişdir.Daxili valyuta

bazarında bağlaşmaların nəticəsinə görə Milli Bank sərbəst dönərli valyutalara münasibətdə manatın məzənnəsi müəyyən edir.

Üçüncüsü,Beynəlxalq kredit vəsaitlərinin dövriyyəsi və beynəlxalq hesablaşmalarda beynəlxalq normalar əsas götürülür.Dövriyyə vəsaitlərinin ilk növbədə çek və veksellərin forma və qaydalarını,həmçinin akkreditiv və inkasso qaydaları bu normalarla müəyyən edilir.

Dördüncüsü,Beynəlxalq hesablaşmalar həyata keçiriləndən Azərbaycanın ödəmə vəsaitləri təminatlı olmalıdır.Bu vəsaitlərin təminatlılığı ölkənin valyuta ehtiyatları ilə təsdiq edilir.2004-cü ilin yanvarına Azərbaycanın valyuta ehtiyatları 780 ABŞ dolları təşkil edir.

Nəhayət,beşincisi,valyuta sisteminin təşkilatlandırılma məsələsi həll edilmişdir.AR-ın valyuta münasibətlərini idarə edən və tənzimləyən dövlət orqanları ölkə Prezidenti,Milli Məclis,Nazirlər Kabineti,Milli Bank,Maliyə Nazirliyi və Dövlət Gömrük Komitəsi onların bu sahədə əsas funksiyalarına aşağıdakılar daxildir.

-ölkənin valyuta siyasəti sahəsində qanunvericilik aktlarının qəbulu;

-valyuta qanunvericiliyinə riayət olunmasına nəzarət;

-valyuta siyasəti sahəsində səlahiyyət və funksiyaların bölünməsi;

Valyuta bazarı-valyuta vəsaitlərinin iqtisadi subyektlər(hüquqi və fiziki şəxslər)arasında yerləşdirilməsi,bölüşdürülməsi və

cəmləşdirilməsini xarakterizə edən mexanizmi,vasitə və iqtisadi münasibətlər sistemidir.

Valyuta tənzimlənməsi-dedikdə ölkə iqtisadiyyatındakı valyuta sahəsinin dövlət idarəsi,yəni,dövlət tərəfində beynəlxalq hesablaşmalarının və valyuta əməliyyatları aparılması qaydasının reqlamentləşdirilməsi deməkdir.

AR. Valyuta tənzimi haqqında qanun qəbul edilmişdir(21 oktyabr 2004)N-910.

## Valyuta nəzarəti

Valyuta nəzarətinin məqsədi valyuta əməliyyatlarında valyuta qanunvericiliyinə riayət olmasının təmin edilməsidir.Valyuta nəzarətinin əsas istiqamətləri aşağıdakılardır;

-aparılan valyuta əməliyyatlarının qüvvədə olan qanunvericiliyinə uyğun olması və tələb olunan lisenziya və icazələrin alınması;

-rezidentlərin dövlət qarşısındakı öhdəliklərin,həmçinin əldə olunan xarici valyutanın daxili valyuta bazarında satılması öhdəliyinin yerinə yetirilməsinin yoxlanılması;

-xarici valyutada ödənişlərin qanuni və əsaslı olduğunun yoxlanması;

-valyuta əməliyyatları üzrə hesabatların fani və obyektiv olduğunun yoxlanması.

Gömrük sərhəddindən keçirilən valyuta və valyuta qiymətlərinə nəzarət funksiyası ənənəvi xarakterli olub,əvvələr də gömrük orqanlarının əsas funksiyalarına aid idi.

DGK 9 sentyabr 1998-ci il tarixli 049 saylı əmri ilə "Azərbaycan Respublikası" ərazisindən ixrac edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət barədə "Təlimat" təsdiq edilmişdir.

İxrac edilən malların müqabilində valyuta vəsaitlərinin ödənişinə nəzarət bir neçə mərhələdə həyata keçirilir.

1.İlkin nəzarət

-YGB-nin düzgün doldurulmasına və göstəriliən məlumatların dəqiqliyinə nəzarət;

-həyata keçirilən sövdələşmənin qanunvericiliyinə uyğunluğuna nəzarət;

-hesablaşmaların formalaşdırılması və DGK-nə təqdim edilməsi ;

2.Məlumat-analtik nəzarət

-gömrük orqanlarından alınan məlumatların yoxlanılması;

-valyuta nəzarəti,uçot kartoçkasının doldurulması və əqd üzrə hesablaşmaları aparan müvəkkil banklara göndərilməsi;

-bank tərəfindən rəsmiləşdirilən Uçot Kartoçkalarının alınması və istifadəsi(analizi)

-valyuta köçürülməsi üzrə müəyyən edilmiş qaydaları pozanların müəyyən edilməsi.

3.Bitkin sənədli nəzarət;

-valyutaların köçürülməsində mümkün ola biləcək çatışmazlığı faktı üzrə məqsədli yoxlama.

-Gömrük Məcəlləsi ilə

# *Mövzu 8*

# *A.R –nın gömrük sərhəddindən fiziki şəxslər tərəfindən keçirilən mallara gömrük nəzarəti.*

Plan :

1. *Fiziki şəxslər tərəfindən keçirilən malların gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti qaydaları.*
2. *Fiziki şəxslərin keçirdikləri mallara və nəqliyyat vasitələrinə gömrük baxışı.*
3. *Gömrük güzəştlərindən istifadə edən xarici ölkələrin şəxslərinin sərhəddən keçirdikləri malların gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti.*

**1.** Qüvvədə olan gömrük qanunvericiliyinə uyğun olaraq bütün fiziki şəxslər bərabər əsaslarla malların idxalı və ixracını həyata keçirmək hüququna malikdir.

Fiziki şəxslər istehsal və kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malları güzəştli qaydada keçirə bilərlər.

Fiziki şəxslər üçün güzəştlər , barəsində iqtisadi siyasət tədbirləri tətbiq edilən şəxslər çıxılmaqla gömrük rüsumlarından , vergidən tamamilə və yaxud qismən azad edilənləri özündə birləşdirir. Müxtəlif qateqoriya mallar üçün dəyər və miqdar məhdudiyyətləri qoyula bilər. Məsələn , müəyyən edilmiş dəyər və miqdar kvotunu keçdikdə mallar gömrük ödəmələrinə cəlb edilir.

Sadələşdirilmiş qaydada fiziki şəxslər tərəfindən keçirilən malların və nəqliyyat vasitlərinin gömrük rəsmiləşdirilməsi ancaq gömrük reliminin siyahısına düşdüyü şəraitdə "sərbəst dövrüyyə üçün buraxılış", "ixrac", "müvəqqəti ixrac(idxal)" tətbiq olnur.

Fiziki şəxslər tərəfindən keçirilən malların gömrük rəsmiləşdirilməsi ödənişlərinin hesablanması və alınmasının sadələşdirlmiş qaydası , onun gömrük rəsmiləşdirilməsinə və nəzarətə təqdim edildiyi andan aparılır.

Malların gömrük rəsmiləşdirilməsi və nəzarətə götürülməsi elan edildikdə sadələşdirilmiş deklarasiya forması qəbul edilir : yaxılı formada xüsusi deklarasiya blankı, şifahi formada, başqa formalarda, məsələn, sərnişinlərin "qırmızı" , "yaşıl" karidordan keçməsi və s.

Gömrük ödənişlərinin alınmasının sadələşdirilməsi özünü vahid gömrük ödəniş dərəcəsində, yaxud ümumiləşdirilmiş gömrük ödənişlərinin hesablanmasında və gömrük rəsmiləşdirilməsinin aparılmasında əks etdirir.

Vahid gömrük ödəniş dərəcəsi müəyyən faiz iki ölçü vahidi , konkret mallardan və yaxud ödəniş üçün nəzərdə tutulmuş mallardan gömrük dəyərinin cəmləşdirilmiş formada Azərbaycan, yaxud xarici valyuta ilə ödənilməsində özünü əks etdirir. Məsələn, avtomobillərdə

belə vahid mühərriklərin, həmçinin vahid ölçüsü , mallar üçün vahid çəkidə keçirilən əl yükləri, baqaj və s. hessab oluna bilər.

Vahid ödəniş dərəcəsi malların saxlanmasına görə gömrük yığımları , həmçinin malların gömrük rəsmiləşdirilməsini , bununla bağlı gömrük orqanlarının müəyyən etdikləri yeri və vaxtı əsasən özündə birləşdirir. Əvvəllərdə qeyd edildiyi kimi sadələşdirilmiş , güzəştli metodlar bir qayda olaraq , istehsal kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara aid edilir. Malların təyinayı ümumi qaydada qəbul olunmuş beynəlxalq norma və təcrübəyə əsasən gömrük orqanlarının vəzifəli şəxsləri tərəfindən müəyyənləşdirilir. Odur ki, keçirilən malların xarakteri , miqdarı, malların tez – tez keçirilməsi və gediş gəliçin bütün cəhətləri nəzərə alınır.

Kommersiya məqsədləri üçün istifadə olunan mallar gömrük yük bəyannaməsi tətbiq edilməklə rəsmiləşdirilir.

Sadələşdirilmiş formada yazılı bəyanamədə gömrük bəyannaməsini doldurarkən əl yükləri də daxil edilməklə mütləq baqal qoyulan yüklərin miqdarı, onlarda aparılan predmetlər valyuta və yaxud qiymətli əşyalar gömrük nəzarəti üçün dəqiq göstərilməlidir.

Gömrük rəsmiləşdirilməsinin gedişi zamanı gösrərilən məlumatların düzgünlüyünə nəzarət edilir. Gömrük nəzarəti və rəsmiləşdirilməsi bitdikdən sonra gömrük bəyannaməsi gömrük işçiləri tərəfindən təsdiq edilir. Təsdiq edilmiş gömrük bəyannaməsi , gömrük rəsmiləşdirilməsinin qutarmasına daair qeydiyyat aparmaqla sərnişinə qaytarılır. Bu sənəd malların , valyutanın , başqa qiymətli əşyaların müqavimətsiz gömrük sərhəddində keçirilməsinə xidmət edir.

Gömrük bəyannaməsi itirildikdə bərpa olunmur, sərhəddən keçməli olan şəxs, gömrük sərhəddində malların , valyutanın və difər qiymətli əşyaların maneəsiz keçirilməsi hüququndan (idxal – ixrac) məhrum olur və bu gömrük sərhəddində xüsusi qayda tənzimlənir.

Gömrük sərhəddini keçən fiziki şəxslərin gömrük rəsmiləşdirilməsinə daxildir : yazılı gömrük bəyannaməsində təyinatı

göstərilməklə onlara məxsus əşyalar, gömrük ödəmələri alınan xüsusi qaydada tənzimlənən idxal – ixrac malları , başqa baqajlatrda keçirilən mallar.

Fiziki şəxslər tərəfindən gömrük sərhəddindən keçirilən bütün mallar və nəqliyyat vasitələri gömrük nəzarətinə aid edilir. Nəzarət forması müxtəlif ola bilər. Bu zaman bəyannamədə verilən məlumatların düzgünlüyü yoxlanılır.

**2.**Gömrük qanunvericiliyinə uyğun olaraq gömrük baxışı gömrük nəzarətinin bir forması hesab edilir .

Gömrük baxışı nəğd vəsait , yaxud nəqliyyat vasitələri olmadıqda , əl yükləri və baqajın , həmçinin göstərilməyən , yaxud gömrük nəzarətindən gizlədilən fiziki şəxsin bədənində, başqa örtülü yerlərində olan predmetlərin yoxlanılmasını özündə əls etdirir.

Adamların paltarlarında və bədənində aparılan yoxlamaya fərdi yoxlama deyilir və bu gömrük nəzarətinin müstəsna forması hesab olunur.

Tətbiq olunan bütün növ texniki vasitələr insanların həyatı və sağlamlığı üçün təhlükəsiz olması, mallara və nəqliyyat vasitlərinə ziyan vurmamasıdır. Baxışın təşkili və aparılması zamanı gömrük orqanının vəzifəli şəxsi şəxsiyyətin konstitusiya hüququnu gözləməlidir.

Şəxsi yoxlama gömrük orqanı rəisinin qərarına əsasən xüsusi əsaslandırılmış şərairdə aparılır .

Əl yüklərinin və baqajlarını gömrük yoxlaması aşağıdakı qaydada aparılır :

- Baqajın və əl yüklərinin hər bir gizli yerləri , həmçinin düzəldilmiş və xüsusi tikilmiş yerlər, örtüklər ;
- Xüsusi əşya gizlədilməsi mümükün olan yerlər ;
- Bağlanmış ayrı –ayrı yerlər ;

- Gömrük nəzarətinin texniki vasitləri ilə gizli olmayan bəzi yerlər ;

Nəqliyyat vasitlərinin gömrük yoxlaması aşağıdakı qaydada aparıla bilər :

- ✓ Hissələrin sökülməsi və konstruksiya qurğularının elementlərinin açılması ;
- ✓ Konstruksiya qurğularının tam sökülməsi və demontaj edilməsi ;
- ✓ Sökülmədən və demontaj edilmədən.

Nəzərə almaq lazımdır ki, gömrük yoxlaması təkcə gömrük nəzarətinin yaxud texnoloji əməliyyatların aparılması forması kimi deyil, həm də ondan irəli gələn prosessual hərəkətləri əhatə edir. Sahibkar əl yüklərinin, baqajın və nqliyyat vasitələrinin yoxlanmasında iştirak etmək hüququna malikdir.

Hər hansı bir şəraitdən asılı olmayaraq onu bu hüquqdan heç kim məhrum edə bilməz. Lakin əl yüklərinin və baqajın , yaxud nəqliyyat vasitlərinin yoxlanmasını təxirə salmaq mümkün olmadıqda , proses sahibkarın iştirakı istisna edilməklə aparılır. Məsələn, əldə olan məlumata əsasən yükdə partlayəşa səbəb olan təhlükəli elementlər, yaxud silah, başqa partlayıcı, zəhərləyici maddələr olduqda və başqa yüklər üçün təhlükələr doğurduqda , bu proses həyata keçirilir. Belə yoxlamalar aparılarkən şahid qismində müxtəlif kateqoriyalı adamlar dəvət oluna bilər. Yoxlamanın nəticəsi aktlaşdırıldıqda şahid qismində iştirakçının imzası da aktda öz əksini tapır.

**3.**Azərbaycanın gömrük ərazisindən keçirilən əşyaların gömrük rəsmiləşdirilməsi məsələsinə dair qərarlar qəbul edilərkən bir çox təcrübəli gömrük işçiləri bu sahədə böyük staja , təcrübəyə malik olmalarına baxmayaraq xarici səfirliklərin nümayəndələrinə, konsulluqlara , beynəlxalq təşkilatlara və onların vəzifəli şəxslərinə , həmçinin Azərbaycanda olan xarici hüquqi şəxslərə münasibətdə

vəziyyəti düzgün qiymətləndirə bilmirlər. Nəticədə düzgün olmayan qərarlar qəbul edilə bilər ki, bu da beynəlxalq münasibətlərdə ciddi çətinliklərin yaranmasına səbəb ola bilər. Ona görə də düzgün qərarlar qəbul etmək üçün gömrük işçisi ilk növbədə xarici səfirliklərin , xüsusi missiya ilə Azərbaycana gələnlərin , xarici konsulluq idarələrinin , beynəlxalq təşkilatların və onların nümayəndələrinin beynəlxalq – hüquqi tənzimləmə fəaliyyəti barədə müəyyən anlayışa malik olmalıdır.

Osur ki, dərslikdə mövqeyindən yanaşmaqla xarici nümayəndələrin , iş adamlarının , onların texniki xidmət işçilərinin , xarici hüquqi şəxslərin malik olduğu malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti məsələlərinə də yer verilmişdir. Ilk növbədə yuxarida göstərilən kateqoriya şəxslərə gömrük güzəştlərinin verilməsi qaydaları üzərində dayanaq.

Xzarici nümayəndəliklərə verilən gömrük güzəştlərinin normativ – hüquqi əsasları beynəlxalq müqavilələrə və beynəlxalq hüquqi qaydalara söykənir. Bununla yanaşı xarici şəxslər üçün müəyyən edilmiş bir sıra qanunaltı güzəştlər də var.

A,R – nın beynəlxalq qanunvericiliyinin normativ hüquqi qaydalarına uyğun olaraq xarici nümayəndəliklərin başçılarına və onların ailə üzvlərinə aşağıdakı gömrük güzəştləri verilir :

- Xarici nümayəndəliyin başçısı və ya onun ailə üzvlərinə göndərilən baqajda şəxsi istifadə üçün nəzərdə tutulmayan predmetin olmasına dair ciddi əsas istisna edilməklə bütün növ gömrük yoxlamalarından azad edilir;
- Saxlanca görə ödəmələr , gömrük rəsmiləşdirilməsinin gömrük ərazisindən başqa yerdə və başqa vaxtda aparılmasına görə ödəmələr, gömrük orqanlarının bu qəbildə olan başqa xidmətləri istisna edilməklə bütün növ gömrük yoxlamalarında azad edilirlər.

Privilegiya və immunitet güzəştləri xarici nümayəndəliklərə, diplomatik heyətə və onların ailə üzvlərinə şamil edilir. Əgər onlar :

- Gəldiyi ölkənin vətəndaşı deyilsə ;
- Bilavasitə priveleqiya və immunitet daşıyıcıları sərhəddi keçərkən gəldiyi ölkədə həmin şəxslə birlikdə yaşayırsa.

Diplomatik poçtu müşayiət edən şəxsə diplomatik kuryer deyilir. Diplomatik kuryer daimi status ala bilər və yaxud bir göndərişə təyin edilə bilər. Xarici diplomatik və konsulluq kuryerləri gömrük baxışından və gömrük ödənişlərindən qarşılıqlı olaraq azadetmə əsasında şəxsi istifadə üçün olan malları gətirə və apara bilər. Saxlanca görə ödənilən və gömrük orqanlarının müəyyən edilmiş iş yerlərindən kənara və ya iş vaxtından kənar vaxtda gömrük rəsmiləşdirilməsi və buna bənzər xidmətlərə göstərilməsinə görə ödəniçlər istisna olunur.

Beynəlxalq hökümətlərarası təşkilatlar , onların nəzdində xarici dövlət nümayəndəliklərinin şəxsi heyəti və ailə üzvləri üçün gömrük güzəçtləri Azərbaycanın beynəlxalq müqavilələri ilə müəyyən edilir.

A.R –nın gömrük qanunvericiliyinin uyğun olaraq xarici nümayəndəliklərinin , diplomatik heyətin şəxsi yükləri maneəsiz buraxılır. Lakin uzunmüddıtli istifadə üçün nəzərdə tutulmuş əşyalar istidna edilir.

Belə əşyaların miqdarı barədə xarici nümayəndələr, diplomatlar gömrük orqanlarına əvvəlcədən müvafiq qaydada məlumat verməlidirlər. Xarici nümayəndəliklərin istifadə etdiyi xüsusi əşyalarına münasibətdə də eyniqaydada istifadə olunur. Lakin, buna qanunvericilikdə xüsusi formada yazılı gömrük yük deklarasiyası tələb olunur.